# Sertifikasiya – davamlı inkişaf

## Nazir müavinləri və ictimaiyyət nümayəndələri sertifikatlaşdırma imtahanlarını izləyiblər



Elm və təhsil nazirinin müavini Firudin Qurbanov bölgələrdə təşkil edilən sertifikatlaşdırma imtahanlarının gedişatı ilə tanış olmaq məqsədilə iyunun 22-də Sumqayıt şəhərinə səfər edib.

Nazir müavini Firudin Qurbanov, millət vəkili Müşfiq Məmmədli, Təhsil İnstitutunun İnsan Resursları Mərkəzinin direktoru Nurlan İsmayılbəyli və yerli təhsili idarəetmə qurumlarının rəhbərləri Sumqayıt şəhərində təşkil edilmiş mərkəzdə keçirilən test imtahanlarını izləyiblər.

Qonaqlara məlumat verilib ki, sertifikatlaşdırma imtahanları Abşeron — Xızı Regional Təhsil İdarəsi üzrə 1 mərkəzdə təşkil olunub. Sumqayıt şəhərində keçirilən imtahanlara Sumqayıt, Abşeron və Xızıda yerləşən ümumi təhsil müəssisələrində çalışan ibtidai sinif müəllimləri cəlb olunublar.

İmtahan prosesini izləyən Firudin Qurbanov qeyd edib ki, sertifikatlaşdırma prosesinin məqsədi müəllimlərin fasiləsiz inkişafının təmin olunması üçün onların peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi və ehtiyaclarının müəyyən edilməsidir. Sertifikatlaşdırmanın nəticələri müəlllimlərin karyera inkişafı üçün vacib həlqədir. Nazir müavini bildirib ki, ümumi təhsil müəssisələrinə direktorların seçimi prosesinin müsahibə mərhələsində namizədlərin sertifikatlaşdırma nəticələrinə də baxılacaq.



Elm və təhsil nazirinin müavini Həsən Həsənli bölgələrdə təşkil edilən sertifikatlaşdırma imtahanlarının gedişatı ilə tanış olmaq məqsədilə iyunun 21-də Şirvan şəhərinə səfər edib.

Nazir müavini Həsən Həsənli, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, millət vəkili İltizam Yusifov və yerli təhsili idarəetmə qurumlarının rəhbərləri Şirvan şəhərində təşkil edilmiş 3 mərkəzdə keçirilən test imtahanlarını izləyiblər.

Qonaqlara məlumat verilib ki, sertifikatlaşdırma imtahanları Şirvan-Salyan Regional Təhsil İdarəsi üzrə 4 mərkəzdə təşkil olunub. Şirvan şəhərində keçirilən imtahanlara Şirvan-Salyan, Mil-Muğan və Lənkəran-Astara regional təhsil idarələrinə aid müəssisələrdə çalışan müəllimlər cəlb olunublar.

İmtahan prosesini izləyən Həsən Həsənli qeyd edib ki, sertifikatlaşdırma təhsil sistemimiz üçün yenilik olmasına baxmayaraq, gələcək uğurlarımızın təməli kimi dəyərləndirilə bilər. Eyni zamanda bu proses inkişafa ehtiyacı olan istiqamətləri müəyyənləşdirməyə imkan yaradacaq. Prosesin təşkilində məqsəd şagirdlər üçün ən yaxşı təhsili təmin edə bilməkdir. Sertifikatlaşdırma müəllimin öz üzərində mütəmadi işləməsi, nəticəsini yaxşılaşdırması üçün ciddi stimul yaradır.



Sertifikatlaşdırma imtahanlarının gedişi ilə yaxından tanış olmaq məqsədilə Elm və Təhsil Nazirliyinin nümayəndələri, millət vəkilləri, media qurumlarının rəhbərləri və tanınmış ictimaiyyət nümayəndələrinin iştirakı ilə iyunun 20-də imtahanların keçirildiyi Bakı şəhəri 161 nömrəli tam orta məktəbə mediatur təşkil edilib.

Mediatur iştirakçılarına məlumat verilib ki, bu gün ilk olaraq ibtidai sinif müəllimləri üçün sertifikatlaşdırma imtahanları keçirilir. 20000-ə yaxın ibtidai sinif müəllimi 20-23 iyun tarixlərində imtahana cəlb olunacaq. İyunun 24-də isə 8500-dən çox Azərbaycan dili və ədəbiyyat müəllimi üçün test imtahanları keçiriləcək.

Mediaturda iştirak edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli qeyd edib ki, sertifikatlaşdırma müəllimlərin davamlı inkişaf prosesidir və sertifikatlaşdırmadan keçən müəllimlər tədris prosesində daha üstün səriştə, bacarıq sərgiləyirlər.

Mətin Kərimli əlavə edib ki, sertifikatlaşdırma diferensiallaşmış əməkhaqqı sisteminin tətbiqinə uyğun maaş artımına və sosial rifahın yüksəlməsinə də imkan yaradır.

Daha sonra qonaqlar proseslə bağlı fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, sertifikatlaşdırma imtahanları 20-24 iyun tarixlərini əhatə edir. Test imtahanları ölkənin 13 müxtəlif şəhəri üzrə 23 mərkəzdə təşkil olunub.